**Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri cənab Samir Nuriyevə**

**Surəti:** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına

Əliyeva Sevil Akif qızı tərəfindən
Ünvan: Binəqədi rayonu,Biləcəri qəsəbəsi T.Yaqubov 12
Tel. :+994 55 480 90 63

**Təşəkkür məktubu**

Hörmətli Samir müəllim!

Mənim oğlum Hacıyev Rəşad Rəşid oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.2.3-cü maddəsi ilə təqsirləndirilməsinə dair Binəqədi rayon Polis İdarəsinin icraatında 221140010 nömrəli cinayət işi olmuşdur.

Bildirirəm ki, mən Azərbaycan Respublikası Prezident Administrasiyasına müraciət edərək, mənə oğlumun hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etdim. Müraciətim aidiyyəti üzrə Azərbaycan Respublikası Vəkillər Kollegiyasına yönləndirilmişdir.

Oğluma dövlət tərəfindən Bakı şəhəri 11 saylı Vəkil Bürosunun vəkili Abbasova Nuriyyə Rasim qızı müdafiəçi təyin edilmişdir. **Bildirirəm ki, mən vəkil Nuriyyə xanım Abbasovanın oğluma məhkəmədə müdafiəsi zamanı göstərmiş olduğu keyfiyyətli hüquqi yardımdan bir ana kimi çox məmnunam və razıyam.**

Bildirirəm ki, onun müdafiəsi nəticəsində oğlum iş üzrə Binəqədi Rayon Məhkəməsinin 11.10.2023-cü il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.2.3-cü maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 02 (iki) il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunmaqla təyin olunmuş azadlıqdan məhrumetmə cəzası şərti olaraq tətbiq olunmuş və ona 01 (bir) il sınaq müddəti təyin edilmişdir.

**<u>Hörmətli Samir müəllim,</u>**

Sizə yaradılmış şəraitə görə təşəkkürümü bildirirəm. Bu ərizəni Sizə yazmaqda məqsədim, o çətin, çıxılmaz anlarda vəkilimiz Nuriyyə Abbasovanın bizə həm hüquqi və həm də mənəvi dəstək olması barədə məlumat verməkdir.

**Bir daha SİZƏ və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırova təşəkkürümü bildirirəm.**

İmza: Əliyeva Sevil Akif qızı

Tarix.04.10.2024

Vəkillər Kollegiyasının Rəyasət Heyəti
Daxil olma № 3813
«21» 10 2024